**Rəsmiyyə Sabir qızı Abdullayeva**
**i.e.d., dos. AMEA İqtisadiyyat İnstittutu,**
**"İnklüziv sosial inkişaf" şöbəsinin müdiri.**
**UOT:31;33;338.;JEL:A11;A13;A19;F63;I31;I38.**

# Sosial Tərəqqi İndeksi üzrə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması

***Xülasə***

*Tədqiqatın məqsədi – Azərbaycanın Sosial Tərəqqi İndeksi üzrə mövqeyini araşdırmaqdan ibarətdir. Tədqiqatın metodologiyası - tədqiqat işində müqayisəli təhlil, ümumiləşdirmə və korrelyasiya metodlarından istifadə edilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti - Azərbaycanda sosial tərəqqinin gücləndirilməsi məqsədi ilə aparılan sosial-iqtisadi siyasət sahəsində qərarların qəbulu zamanı faydalı ola bilər. Tədqiqatın nəticələri – Azərbaycanın Sosial Tərəqqi İndeksi üzrə mövqeyinin ürəkaçan olmadığı müəyyənləşdirilmişdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – ilk dəfə olaraq Azərbaycanın Sosial tərəqqi İndeksi üzrə mövqeyi təhlil olunaraq onun zəif və güclü tərəfləri müəyyənləşdirilmişdir.*

***Açar sözlər:*** *sosial tərəqqi, rifah, təhsil, sağlamlıq, inklüzivlik, insan hüquqları, ekoloji təhlükəsizlik*

## Giriş

Bütün iqtisadi sistemlər və sosial-iqtisadi modellər insanların rifah halının yaxşılaşdırılmasını, onların ehtiyaclarının ödənilməsini, bir sözlə sosial inkişafı özlərinin əsas məqsədləri hesab edirlər. Lakin malik olduqları sosial-iqtisadi modeldən asılı olaraq hökumətlərin bu məqsədlərə çatmaq yolları fərqlidir. Dünyada sosial inkişafı xarakterizə edən bir sıra göstəricilər sistemi mövcuddur. Son illərdə bu göstəricilər sistemi daha da genişlənmiş, özündə sosial-iqtisadi inkişafın ən müxtəlif tərəflərini birləşdirmişdir. Belə ki, son illərdə sosial inkişafın qiymətləndirilməsində adambaşına düşən Ümumi Daxili Məhsul, Ümumi Milli Məhsul, investisiya qoyuluşu kimi iqtisadi göstəricilərlə yanaşı, həyat keyfiyyətini və məmnuniyyətini, insan azadlıqlarını, siyasi hüquqları, ətraf mühitin keyfiyyətini xarakterizə edən çoxsaylı göstəricilər sistemindən istifadə edilir. İnsanlar üçün cəmiyyətdə potensiallarını realizə edə bilmək imkanlarının formalaşdırılması, özlərini cəmiyyətdə bərabərhüquqlu, azad, rahat, xoşbəxt və s. hiss etmələri də mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Yəni "layiqli həyat"ın təmin olunması prioritetdir. Müxtəlif beynəlxalq təşkilatlar (Birləşmiş Millətlər Təşkilatı, Asiya İnkişaf Bankı və s.) sosial inkişafı qiymətləndirməkdən ötrü metodologiyalar işləyib hazırlayırlar, reytinqlər müəyyənləşdirirlər. Onlardan biri də, Sosial İmperativ Qeyri-kommersiya Təşkilatının hazırladığı Sosial Tərəqqi İndeksidir (STİ). STİ-nin hesablanmasında çoxsaylı (rifah, sağlamlıq, ətraf mühitin keyfiyyəti, şəxsi və siyasi hüquqlar, informasiya kommunikasiya vasitələrinə əlçatanlıq və s.) göstəricilər sistemindən istifadə edilir. STİ ilk dəfə 2013-cü ildə Sosial İmperativ Qeyri-kommersiya Təşkilatı tərəfindən işlənilmiş və həmin ildə də Harvard Biznes Məktəbinin professoru M.Porter tərəfindən Birləşmiş Millətlər Təşkilatının (BMT) VI Nazirlər Forumunda təqdim olunmuşdur.

## STİ-nin hesablanması metodologiyası

STİ-nin yaradıcıları bu İndeksin tərəqqini, rifah halını qiymətləndirmək, ölçmək üçün digər indekslərlə müqayisədə daha dəqiq mənzərə yaratdığını iddia edirlər. Belə ki, bu indeks təkcə insanların xoşbəxtliyini və ya həyat məmnuniyyətini ölçmür, habelə yaşayış yeri və qidalanma kimi təməl və təbii ehtiyaclardan tutmuş hüquq, təhsil, şəxsi təhlükəsizliyə qədər olan sahələrdəki həyat nəticələrinə əsaslanır. Məhz bu müstəsnalıq, indeksi zamanla

cəmiyyətdəki dəyişiklikləri izləməyə imkan verən faydalı bir alətə çevirir. STİ insanlar üçün vacib nəticələri, məsələn tibb xidmətlərinə sərf edilən xərcləri deyil, ölkədə səhiyyə sahəsinin təklif etdiyi xidmətlərə əlçatanlığı ölçür. İndeks iqtisadi inkişaf və sosial tərəqqi arasındakı əlaqəni daha dərindən təhlil etməyə, sosial inkişaf üçün iqtisadi imkanlardan istifadə edərək müxtəlif ölkələrdə ortaya çıxan uyğunsuzluqların həm obyektiv, həm də subyektiv səbəblərini daha yaxşı anlamağa imkan verir. İndeks İnsanın əsas ehtiyacları, Rifahın təməlləri və İmkanlar adlı üç sub-indeks əsasında hesablanır (cədvəl 1).

**Cədvəl 1.**

**STİ-nin strukturu, 2020**

| İnsanın əsas ehtiyacları | Rifahın təməlləri | İmkanlar |
|---|---|---|
| 1 | 2 | 3 |
| **1.1.Qidalanma və ilkin tibbi yardım**<br>1. Qida çatışmazlığı<br>2. Ana ölümü<br>3. Uşaq ölümü<br>4. Uşaqların inkişafdan geri qalması<br>5. İnfeksion xəstəliklərdən ölənlər | **2.1. Əsas biliklərə əlçatanlıq**<br>1. Təhsili olmayan qadınlar<br>2. İbtidai məktəbə qeydiyyat<br>3. Orta təhsili olanlar<br>4. Orta təhsildə gender bərabərliyi<br>5. Keyfiyyətli təhsilə əlçatanlıq | **3.1. Şəxsi hüquqlar**<br>1. Siyasi hüquqlar<br>2. Söz azadlığı<br>3. Din azadlığı<br>4. Ədalətin əlçatanlığı<br>5. Qadınların mülkiyyət hüquqları |
| **1.2. Su və sanitariya**<br>1.Təhlükəli su, kanalizasiya və gigiyena ilə əlaqəli ölümlər<br>2.Təhlükəli və ya təmizlənməmiş su mənbələrindən istifadə edən əhali<br>3.Təhlükəli və ya təkmilləşdirilməmiş sanitariya vasitələrindən istifadə edən əhali | **2.2. İnformasiya və kommunikasiyanın əlçatanlığı**<br>1. Mobil telefon abunəçiləri<br>2. İnternet istifadəçiləri<br>3. Elektron hökumətə çıxış<br>4. Media senzurası | **3.2. Şəxsi azadlıq və seçim**<br>1. Özünüməşğulluq<br>2. Erkən nigah<br>3. Kontraseptivlərə tələbatın ödənilməsi<br>4. Korrupsiya |
| **1.3. Yaşayış yeri**<br>1. Elektrikə əlçatanlıq<br>2.Yemək bişirmək üçün təmiz yanacağa və texnologiyaya əlçatanlıq<br>3.Məişətdə hava çirklənməsinin səbəb olduğu ölümlər | **2.3. Sağlamlıq və rifah**<br>1.60 yaşdan sonra gözlənilən ömür müddəti<br>2.Qeyri-infeksion xəstəliklər səbəbindən erkən ölümlər<br>3. Əsas tibbi xidmətlərə əlçatanlıq<br>4.Keyfiyyətli səhiyyə xidmətinə əlçatanlıq | **3.3. İnklüzivlik**<br>1. Cinsi azlıqların cəmiyyətdə qəbulu<br>2.Milli və dini azlıqlara qarşı diskrinimasiya və şiddət<br>3.Siyasi hakimiyyətdə gender bərabərliyi<br>4.Siyasi hakimiyyətdə sosial-iqtisadi statusa görə bərabərlik<br>5.Sosial qrupun siyasi gücünün bərabərliyi |
| **1.4. Şəxsi təhlükəsizlik**<br>1. Yol-nəqliyyat qəzalarında ölənlər<br>2. Siyasi qətllər və işgəncələr<br>3. Özünü müdafiə cinayətləri<br>4. Qəsdən törədilən cinayətlər | **2.4. Ətraf mütin keyfiyyəti**<br>1. Atmosferin çirklənməsi ilə əlaqəli ölümlər<br>2. Partikül maddə<br>3. İstixana qazı tullantıları<br>4. Biomun qorunması | **3.4. Ali təhsilə əlçatanlıq**<br>1. Ümumi təhsil müddəti<br>2. Ali təhsilli qadınlar<br>3.Qabaqcıl universitetlər<br>4. İstinad olunan elmi əsərlər |

İndeks və onun göstəriciləri 0-100 ballıq şkala üzrə ölçülür. Sosial tərəqqi baxımından ölkələr ən yüksək, yüksək, ortadan yuxarı, ortadan aşağı, aşağı, ən aşağı olmaqla 6 qrupa bölünür. STİ müxtəlif ölkələrdə sosial sorğular, inkişafla bağlı ekspert qiymətləndirmələri və beynəlxalq təşkilatların statistik məlumatları əsasında hesablanır. STİ üç sub-indeksin (İnsanın əsas ehtiyacları, Rifahın təməlləri, İmkanlar), sub-indekslərin hər biri isə dörd alt-indeksin (Qidalanma və ilkin tibbi yardım, Su və sanitariya, Yaşayış yeri, Şəxsi təhlükəsizlik, Əsas biliklərə əlçatanlıq, İnformasiya və kommunikasiyanın əlçatanlığı, Sağlamlıq və rifah, Ətraf mütin keyfiyyəti, Şəxsi hüquqlar**,** Şəxsi azadlıq və seçim, İnklüzivlik, Ali təhsilə əlçatanlıq) ədədi ortası kimi hesablanır. Qidalanma və ilkin tibbi yardım alt indeksi 5, Su və sanitariya alt-indeksi 3, Yaşayış yeri alt-indeksi 3, Şəxsi təhlükəsizlik alt-indeksi 4, Əsas biliklərə əlçatanlıq alt-indeksi 5, İnformasiya və kommunikasiyanın əlçatanlığı alt-indeksi 4, Sağlamlıq və rifah alt-indeksi 4, Ətraf mütin keyfiyyəti alt-indeksi 4, Şəxsi hüquqlar alt-indeksi 5**,** Şəxsi azadlıq və seçim alt-indeksi 4, İnklüzivlik 5, Ali təhsilə əlçatanlıq alt-indeksi 4 göstərici əsasında hesablanır. Alt-indekslərin göstəriciləri isə $((X_i - X_{min})/(X_{max}-X_{min}))*100$ düsturu ilə 0-100 intervalına gətirilir.

- $X_i$ - seçilmiş ölkədə indikatorun faktiki qiyməti;
- $X_{min}$ - indikatorun minimum qiyməti (təhlil ilində seçilmiş göstərici üzrə ən kiçik faktiki qiymət);
- $X_{max}$ - indikatorun maksimum qiyməti (təhlil ilində seçilmiş göstərici üzrə ən yüksək faktiki qiymət).

STİ 2020-ci ildə 163 ölkədə insanların (dünya əhalisinin 99,85%-indən çoxunu əhatə edir) həyat keyfiyyətini və məmnuniyyətini, rifah halını, sağlamlıq vəziyyətini, təhsil səviyyəsini və s. öyrənmək məqsədilə 50 sosial və ətraf mühit göstəricisindən istifadə edilməklə hesablanmışdır. 2020-ci ildə STİ üzrə ilk üçlüyə Norveç başda olmaqla, Danimarka (92,11) və Finlandiya (91,89) daxil olmuşdur.

**Sosial Tərəqqi İndeksi üzrə Azərbaycanın mövqeyinin təhlili**

STİ üzrə hesabatda 2019-cu ilədək ölkəmiz yer almırdı. Səbəb ikinci - Rifahın təməlləri sub-indeksi üzrə Orta təhsili olanlar və Orta təhsildə gender bərabərliyi göstəricilərinin beynəlxalq statistik bazada olmaması idi. Sevindirici haldır ki, 2020-ci ildə Azərbaycan STİ üzrə reytinqə daxil edildi. Lakin təəssüflə qeyd etmək lazımdır ki, ölkəmizin son 8 ildə mövqeyi STİ üzrə pisləşmişdir [9]. 2020-ci ildə ölkəmiz STİ-yə görə 64,11 balla 104-cü pillədə qərarlaşmışdı. 2013-cü ildə Azərbaycan 57.43 balla 103 pillədə yer almışdır (qrafik 1).

**Qrafik 1.**

**STİ üzrə Azərbaycanın mövqeyi**




Mənbə: https://www.socialprogress.org/

2013-2020-ci illərdə STİ-*yə* nəzər salsaq, görərik ki, orta göstərici dünya üzrə 62.15-64.32 aralığında, ölkəmizdə isə 59.65-62.89 intervalında dəyişmişdir. Respublikamızın bu indeks üzrə mövqeyinin zəif olma səbəbi İmkanlar sub-indeksinin alt-göstəriciləridir. Belə ki, qeyd olunan dövrdə adıcəkilən sub-indeks ölkəmizdə müvafiq olaraq 38.85-39.55 aralığnda dəyişdiyi halda, orta rəqəm 57.25-57.74 olmuşdur. Lakin, digər 2 sub-indeksin göstəriciləri tədqiqata cəlb edilmiş 163 ölkənin orta göstərisindən daha yüksək olmuşdur. Azərbaycanda İnsanın əsas ehtiyacları sub-indeksi 82.13-84.83, Rifahın təməlləri sub-indeksi isə 57.43-65.32 intervalında olduğu halda, anoloji orta göstəricilər müvafiq olaraq 1.64-74.65, 57.07-60.82 aralığında dəyişmişdir. 2020-ci ildə STİ üzrə Azərbaycanın ən güclü tərəfləri Qidalanma və təməl tibbi yardım (92,47 balla 77-ci pillə), Yaşayış yeri (88,41 balla 92-ci pillə), Su və sanitariya (85,77 balla 89-cu pillə), Əsas biliklərə əlçatanlıq (84,04 balla 77-ci pillə), İnformasiya və kommunikasiyaların əlçatanlığı (71,27 balla 84-cü pillə), ən zəif tərəfləri isə İnklüzivlik (24,81 balla 154-cü pillə), Şəxsi hüquqlar (40,06 balla 152-ci pillə), Sağlamlıq və rifah (48,91 balla 137-ci pillə), Şəxsi azadlıqlar və seçim (49,04 balla 139-cu pillə), Ali təhsilin əlçatanlığı (51,38 balla 95-ci pillə) alt-indeksləri üzrə olmuşdur. Əvvəldə qeyd olunduğu kimi, son illərdə sosial tərəqqi çoxsaylı göstəricilər sistemi vasitəsi ilə ölçülür. Bu göstəricilər qrupuna adambaşına düşən ÜDM daxil edilməyib.

**Qrafik 2.**

**Azərbaycanda STİ ilə adambaşına düşən ÜDM arasında asılılıq (2011-2020-ci illər)**




Mənbə:https://www.socialprogress.org/;https://www.stat.gov.az/source/system_nat_accounts

Qrafikdən göründüyü kimi, STİ ilə adambaşına düşən ÜDM arasında korrelyasiya asılılığı çox zəifdir (0.21). Bu da, sosial inkişaf göstəricisi olaraq adambaşına düşən ÜDM-in deyil, yaşayışın müxtəlif aspektlərini özündə birləşdirən fərqli göstəricilərin seçilməsinin daha əsaslı olduğunu isbatlayır.

**İnsanın əsas ehtiyacları sub-indeksi**

İnsanın əsas ehtiyacları sub-indeksi insanların sağlam qidalana bilməsini, içməli suyla, ilkin tibbi yardımla təminatını, əsas kommunal xidmətlərlə təmin edilmiş yaşayış yerlərinə əlçatanlığını, cəmiyyətin nə dərəcədə təhlükəsiz şəraitdə yaşadığını qiymətləndirir. İnsanın əsas ehtiyacları sub-indeksi Qidalanma və ilkin tibbi yardım, Su və sanitariya, Yaşayış yeri və Şəxsi təhlükəsizlik kimi 4 alt-indeksdən ibarətdir. Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da İnsanın əsas ehtiyacları sub-indeksi üzrə göstəricisi yüksək olmuşdur. Bu sub-indeks üzrə Azərbaycan 83,40 balla 76-cı pillədə qərarlaşmışdır. İstər bu sub-indeks, istərsə də bu sub-indeksin alt-indeksləri üzrə ölkəmizin balları dünya üzrə orta göstəricidən yüksək olmuşdur. Bu sub-indeks üzrə nisbətən aşağı göstərici Şəxsi təhlükəsizlik alt-indeksinə aiddir (cədvəl 2).

**Cədvəl 2.**

**İnsanın əsas ehtiyacları sub-indeksinin alt-indeksləri (2020)**

| | **Azərbaycan** | | **Dünya üzrə orta bal** | **Fərq** |
|---|---|---|---|---|
| | **Bal** | **Rənkinq** | | |
| Qidalanma və ilkin tibbi yardım | 92,24 | 77 | 84,64 | 7.6 |
| Su və sanitariya | 93,81 | 89 | 74,72 | 19.1 |
| Yaşayış yeri | 93,51 | 92 | 77,09 | 16.4 |
| Şəxsi təhlükəsizlik | 71,21 | 90 | 62,15 | 9.1 |

Mənbə: https://www.socialprogress.org/

Respublikamız bu sub-indeks üzrə müqayisə olunan qonşu ölkələrin hamısından geridədir (qrafik 3).

**Qrafik 3.**

**İnsanın əsas ehtiyacları sub-indeksi (Azərbaycan və qonşu ölkələri, 2020)**




Mənbə: https://www.socialprogress.org/

Cədvəldən də göründüyü kimi, 2020-ci ildə bu sub-indeks üzrə qonşu ölkələr arasında ən yüksək göstəriciyə 87.91 balla Ermənistan malikdir. Müqayisə olunan qonşu ölkələr arasında bu sub-indeksə görə sonrakı yerlərdə 85.60 balla Qazaxıstan, 85.25 balla isə İran gəlir [4].

Azərbaycanda 2020-ci ildə İnsanın əsas ehtiyacları sub-indeksinin alt-indeksləri üzrə nisbətən yaxşılaşma baş vermişdir (qrafik 4).

**Qrafik 4.**

**Azərbaycan üzrə insanın əsas ehtiyacları sub-indeksi və onun alt-indeksləri (2017-2020-ci illər)**




Mənbə: https://www.socialprogress.org/

Qrafikdən göründüyü kimi, 2017-2020-ci illərdə yalnız şəxsi təhlükəsizlik alt-indeksi üzrə geriləmə müşahidə olunur. Bu alt-indeks üzrə Azərbaycanın topladığı bal 2017-ci ildə 70.98 olduğu halda, 2020-ci ildə 66.93-ə düşmüşdür. Digər alt-indekslər üzrə, o cümlədən Yaşayış yeri üzrə 0,58, Su və sanitariya üzrə 1,01, Qidalanma və ilkin tibbi yardım üzrə 0,87 qədər yaxşılaşma baş vermişdir. Sub-indeks üzrə isə 0,51 qədər yaxşılaşma baş vermişdir.

**Rifahın təməlləri sub-indeksi**

Rifahın təməlləri sub-indeksinə əsas biliklərə əlçatanlıq, informasiya və kommunikasiyanın əlçatanlığı, sağlamlıq və rifah və ətraf mühitin keyfiyyəti alt-indeksləri daxildir. Bu sub-indeks üzrə ilk onluğa düşən ölkələrin balı 91-93 bal arasında dəyişir. 2020-ci ildə Sub-indeks üzrə ən yüksək nəticə 93,39 balla Norveçə, ən aşağı nəticə isə 36,69 balla Cənubi Sudana məxsus olmuşdur. Müvafiq ildə respublikamız bu sub-indeks üzrə 67,62 balla 104-cü yerdə qərarlaşmışdır. Müqayisə edilən dövr ərzində əhəmiyyətli dəyişiklik baş verməmişdir. Rifahın təməlləri sub-indeksinə görə qonşu ölkələrlə müqayisədə Azərbaycanın mövqeyinin ürəkaçan olmadığını görürük (qrafik 5).

**Qrafik 5.**

**Rifahın təməlləri sub-indeksi (Azərbaycan və qonşu ölkələri, 2020)**




Mənbə: https://www.socialprogress.org/

Ölkəmiz müqayisə edilən qonşu ölkələr arasında yalnız Türkiyədən reytinqdə 1 pillə öndədir. Bu sub-indeks üzrə qonşu ölkələr arasında ən yaxşı mövqeyə Ermənistan (78.22 balla 53-cü pillə) və Gürcüstan (77.14 balla 59-cu pillə) malikdir.

**İmkanlar sub-indeksi**

İmkanlar sub-indeksi Şəxsi hüquqlar, Şəxsi azadlıq və seçim, İnkluzivlik və Ali təhsilə əlçatanlıq alt-indeksləri əsasında hesablanır. İmkanlar sub-indeksini sosial tərəqqinin müxtəlif xüsusiyyətlərini özündə təcəssüm etdirir. Sub-indeks hər bir ölkədə vətəndaşların şəxsi hüquq və azadlıqlara sahib olmaq, öz şəxsi qərarlarını verə bilmək imkanları ilə yanaşı, cəmiyyətdəki ayrı-seçkilik, siyasi, dini azadlıq dərəcəsini, insanların potensiallarını reallaşdırmaq imkanlarını da qiymətləndirir. İmkanlar sub-indeksi üzrə ilk üçlükdə olan ölkələr STİ-nin də top üçlüyündə yer almışdır. Bu da, İmkanlar sub-indeksinin STİ üzərində təsir gücünün kifayət qədər olduğunu göstərir. Bu sub-indeks üzrə respublikamız 41.32 balla

143-cü pillədə yer almışdır, vəziyyəti qənaətbəxş hesab edilmir. Azərbaycan müqayisə edilən qonşu ölkələrin hamısından geridədir (qrafik 6).

**Qrafik 6.**

**İmkanlar sub-indeksi (Azərbaycan və qonşu ölkələri, 2020)**




Mənbə: https://www.socialprogress.org/

Bu sub-indeks üzrə qonşu ölkələr arasında ən yaxşı mövqeyə 63.64 balla Gürcüstan, ən aşağı nəticəyə isə 48,35 balla İran malik olmuşdur. Lakin bu sub-indeks üzrə son illərdə ölkəmizdə yaxşılaşma müşahidə edilir.

**Qrafik 7.**

**Azərbaycan üzrə İmkanlar sub-indeksi və onun alt-indeksləri (2017-2020-ci illər)**




Mənbə: https://www.socialprogress.org/

Qrafikdən göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə İmkanlar sub-indeksi və onun bütün alt-indeksləri üzrə artım müşahidə edilir. Belə ki, müvafiq dövrdə Şəxsi hüquqlar 38.19-dan 40.06-ya, Şəxsi azadlıq və seçim 45.2-dən 49.04-ə, İnklüzivlik 19.61-dən 24.81-ə, ali təhsilə əlçatanlıq 28.93-dən 51.38-ə yüksəlmişdir.

**Nəticə**

Təhlillər göstərdi ki, STİ üzrə ölkəmizin mövqeyi ürəkaçan deyil. Belə ki, 2020-ci ildə ölkəmiz STİ-yə görə 64,11 balla 104-cü pillədə qərarlaşmışdır. STİ-nin hesablanmasında istifadə edilən sub-indekslərlə və alt-indekslərlə bağlı vəziyyət fərqlidir. 2020-ci ildə STİ üzrə Azərbaycanın ən güclü tərəfləri Qidalanma və ilkin tibbi yardım (92,47 balla 77-ci pillə), Yaşayış yeri (88,41 balla 92-ci pillə), Su və sanitariya (85,77 balla 89-cu pillə), Əsas biliklərə əlçatanlıq (84,04 balla 77-ci pillə), İnformasiya və kommunikasiyaların əlçatanlığı (71,27 balla 84-cü pillə), ən zəif tərəfləri isə İnklüzivlik (24,81 balla 154-cü pillə), Şəxsi hüquqlar (40,06 balla 152-ci pillə), Sağlamlıq və rifah (48,91 balla 137-ci pillə), Şəxsi azadlıqlar və seçim (49,04 balla 139-cu pillə), Ali təhsilin əlçatanlığı (51,38 balla 95-ci pillə) alt-indeksləri üzrə olmuşdur.

**İnsanın əsas ehtiyacları sub-indeksi üzrə:**

Aparılan təhlillər ölkəmizdə İnsanın əsas ehtiyacları sub-indeksi üzrə vəziyyətin digər sub-indekslərlə müqayisədə yaxşı olduğunu göstərir. Bu sub-indeksin tərkibinə daxil olan Qidalanma və ilkin tibbi yardım alt-indeksində ölkəmizi geri salan Uşaq ölümü və Uşaqlarda inkişafdan geri qalmalar adlı göstəricilərdir. Baxmayaraq ki, bu komponentlər üzrə 2019-cu ilə nəzərən 2020-ci ildə ölkəmizdə irəliləmələr baş vermişdir, lakin vəziyyəti qənaətbəxş hesab etmək olmaz. Ana ölümlərinin sayında da artımlar müşahidə olunur. Bu səbəbdən də

ölkəmizin tutduğu mövqe ürəkaçan deyil. Bu da, əsasən ilkin səhiyyə xidmətlərinin səmərəli şəkildə təşkil olunmaması ilə əlaqədardır. Məlum olduğu kimi, respublikamızda tətbiqi 2020-ci ildə başlayan icbari tibbi sığorta mexanizminin bütün ölkə boyu tətbiqi COVİD-19 pandemiyası səbəbindən həmin ildə başa çatdırıla bilmədi. 2021-ci ildə bu mexanizmin bütün ölkə ərazisində tətbiqi həyata keçirildi. Lakin icbari tibbi sığorta mexanizmi bütün ölkə boyu formalaşdırılsa da, sistem yeni olduğundan, səmərəli fəaliyyət göstərmir. Sistemin səmərəli işləməsi üçün müəyyən zaman tələb olunur. Fikrimizcə, icbari tibbi sığorta mexanizminin səmərəli fəaliyyəti gələcəkdə ölkədə ana və uşaq ölümü hallarının azalmasına müsbət təsir göstərəcəkdir. Çünki icbari tibbi sığorta mexanizmi ilkin səhiyyə xidmətlərinin səmərəli təşkilinə əsaslanır. İlkin səhiyyə xidmətlərinin təşkili isə insanların vaxtında müayinə olunması, xəstəliklərin vaxtında aşkara çıxarılması, preventiv tədbirlərin görülməsinə şərait yaradır. Təsadüfi deyil ki, ÜST də hökumətləri səhiyyə sistemində islahat apararkən ilkin səhiyyə xidmətlərinin səmərəli təşkilinə çağırır. Qeyd edilən problemlərin səbəblərindən biri də, ölkəmizdə ümumi səhiyyə xərclərinin tərkibində dövlət səhiyyə xərclərinin payının az olmasıdır. Bundan başqa, ölkəmizdə ilkin səhiyyə xidmətlərinə dövlət büdcəsindən ayrılan vəsaitlər ildən-ilə artsa da, lakin xüsusi çəkisi son illərdə azalmışdır. Halbuki səmərəli səhiyyə siyasəti aparan ölkələrdə səhiyyə vəsaitlərinin çoxu ilkin səhiyyə xidmətlərinə sərf olunur. İlkin səhiyyə xidmətlərinə çəkilən xərclər xəstəliklərin ağırlaşmasının qarşısını almaqla, sağlamlığın qorunmasına və s. gətirib çıxarır. Odur ki, ölkəmizdə ilkin səhiyyə xidmətlərinə ayrılan vəsaitlər artırılmalıdır. Ölkəmizdə əhalinin əsas ehtiyaclarının ödənilməsində su və sanitariya vasitələri ilə təmin olunma göstəricisi üzrə vəziyyət nisbətən qənaətbəxş olmuşdur. Təhlükəli su, sanitariya və gigiyena ilə əlaqəli ölümlərin səviyyəsi və Təhlükəli su mənbələrindən istifadə edən əhali sayı göstəriciləri bu sub-indeksin güclü, Təhlükəli su və sanitariya vasitələrindən istifadə edən əhali göstəricisi isə zəif tərəfi kimi qiyətləndirilə bilər. Yaşayış yeri alt-indeksində ölkəmizi geri çəkən göstərici Məişətdə hava çirklənmələrinin səbəb olduğu ölümlərdir. Elektrikə əlçatanlıq və Yemək bişirmək üçün təmiz yanacağa və texnologiyaya əlçatanlıq komponentləri isə alt-indeksin güclü tərəfləridir. Bu sub-indeks üzrə nisbətən aşağı göstərici Şəxsi təhlükəsizlik alt-indeksinə aiddir. Respublikamız bu sub-indeks üzrə müqayisə olunan qonşu ölkələrin hamısından geridədir. Şəxsi təhlükəsizlik alt-indeksinin Yol nəqliyyat qəzalarında ölənlər və Qəsdən törədilən cinayətlər komponenti bu sub-indeksin güclü, Siyasi qətllər və işgəncə, habelə Özünü müdafiə zamanı törədilən cinayətlər kimi göstəriciləri isə zəif tərəf kimi qiymətləndirilə bilər və bu göstrəicilər üzrə ölkəmizin mövqeyinin yaxşılaşdırılmasına ehtiyac vardır.

**Rifahın təməlləri sub-indeksi üzrə:**

Rifahın təməlləri sub-indeksi üzrə Azərbaycanın mövqeyi ümumilikdə qənaətbəxş hesab edilmir. Sub-indeksin Əsas biliklərə əlçatanlıq və İnformasiya və Kommunikasiyanın əlçatanlığı alt-indeksləri güclü, Sağlamlıq və rifah və Ətraf mühitin keyfiyyəti alt-indeksləri isə zəif tərəfləridir. Əsas biliklərə əlçatanlıq alt-indeksində respublikamızı geri salan İbtidai məktəbə qeydiyyat və Keyfiyyətli təhsilə əlçatanlıq səviyyələrinin aşağı olmasıdır. Ölkəmizdə keyfiyyətli təhsilə əlçatanlıq göstəricisi üzrə vəziyyət ürəkaçan olmamışdır və son illərdə bu göstərici üzrə vəziyyət daha da pisləşmişdir. Bu da, ölkədə təhsilin keyfiyyəti ilə bağlı problemlərin olduğunu isbatlayır. Orta məktəblərdə təhsilin keyfiyyətinin aşağı olması şagirdlərin, xüsusilə də qızların ali təhsil almaq imkanlarına mənfi təsir göstərir. Hər bir millətin gələcəyinin onun keyfiyyətli təhsil sistemindən asılı olduğu yaxşı məlumdur. Odur ki, təhsilin keyfiyyətinin yüksəldilməsi milli prioritet olmalıdır. İnformasiyaya və kommunikasiyaya əlçatanlıq alt-indeksinin təhlili vəziyyətin qənaətbəxş olduğunu göstərsə də, Media senzurası və İnternet istifadəçiləri göstəriciləri onun zəif tərəfləridir. Azərbaycan müqayisə edilən qonşu ölkələrin (İran, Türkiyə, Rusiya, Qazaxıstan, Gürcüstan, Ermənistan)

hamısından geridədir. Ölkəmizdə azad, müstəqil medianın inkişaf etdirilməsinə ehtiyac var. Ölkəmizdə keyfiyyətli İnternet təminatında da problemlər mövcuddur. COVİD-19 pandemiyası zamanı distant təhsilə keçid ölkədə İnternet təminatında ciddi problemlər olduğunu bir daha sübut etdi. Bu problem özünü regionlarda daha qabarıq şəkildə büruzə verdi. Yaşamaqda olduğumuz XXI əsrin "İnformasiya texnologiyaları əsri" olduğunu nəzərə alaraq, ölkədə sürətli internet təminatının yaradılması zəruridir. Sağlamlıq və rifah alt-indeksinin bütün göstəriciləri üzrə ölkəmizin vəziyyəti təəssüf doğurur. 2020-ci ildə bu alt-indeks üzrə Azərbaycan 48.91 balla 137-ci yerdə qərarlaşmışdır. Azərbaycan müqayisə edilən ölkələr arasında axırıncı yerdədir və qeyd edilən 4 göstəricinin hər biri üzrə respublikamızın tutduğu mövqeyi qənaətbəxş deyil. Bu alt-indeks Rifahın təməlləri sub-indeksinin ən "zəif bəndi"dir. Qeyri-infeksion xəstəliklər səbəbindən erkən ölüm göstəricisi üzrə ölkəmiz 159-cu pillədə qərarlaşmışdır. Ölkəmizin tutduğu mövqe qənaətbəxş hesab edilmir. Əsas tibbi xidmətlərə əlçatanlıq göstəricisi üzrə respublikamız 69,65 balla 93-cü pillədə yer almışdır. Azərbaycan müqayisə olunan qonşu ölkələrin hamısından geridədir. Göründüyü kimi, səhiyyə ilə bağlı göstəricilərdə ölkəmizin mövqeyinin ciddi şəkildə yaxşılaşdırılmasına ehtiyac vardır. Fikrimizcə, bu problemlərin bəziləri, yuxarıda qeyd olunduğu kimi, icbari tibbi sığorta mexanizminin səmərəli fəaliyyəti nəticəsində aradan qalxacaqdır.

Ətraf mühitin keyfiyyəti alt-indeksi üzrə yalnız Partikül maddə göstərici üzrə vəziyyət qənaətbəxş hesab edilir. Digər - Atmosferin çirklənməsi ilə əlaqədar ölümlər, İstixana qazı tullantıları və Biomun qorunması göstəriciləri bu alt-indeksin zəif tərəfləridir. İstixana qazı tullantıları göstərici üzrə respublikamız 71 balla 124-cü yerdə qərarlaşmışdır. Bununla belə bu göstərici alt-indeks üzrə ən "zəif bənd"dir. Atmosferin çirklənməsi ilə əlaqəli ölümlər göstəricisi üzrə respublikamızda bu səbəbdən ölənlərin sayı hər 100 000 nəfərə 57 olmuşdur ki, bu da dünya üzrə orta göstəricidən 15 nəfər çoxdur. Bu göstərici üzrə respublikamız reytinqdə 170-ci yerdə qərarlaşmışdır. Ümumiyyətlə, respublikamızın bu göstərici üzrə mövqeyi təəssüf doğurur və bu istiqamətdə təcili tədbirlərin görülməsinə ehtiyac vardır.

**İmkanlar sub-indeksi üzrə:**

İmkanlar sub-indeksi üzrə respublikamız 41.32 balla 143-cü pillədə yer almışdır və vəziyyəti qənaətbəxş hesab edilmir. Azərbaycan müqayisə edilən qonşu ölkələrin hamısından geridədir. Ölkəmizin mövqeyi bu sub-indeks üzrə STİ-nin ən "zəif bəndi"dir. Azərbaycan Şəxsi hüquqlar alt-indeksinə görə 40.06 balla 152-ci yerdə qərarlaşmışdır. Təəssüflər olsun ki, respublikamız bu alt-indeks üzrə müqayisə aparılan qonşu ölkələrin hamısından geridədir. Ölkəmizdə erkən nikahlarla bağlı vəziyyət ürəkaçan deyil. Fikrimizcə, ölkəmizdə (xüsusilə də regionlarda) gənc qızlar arasında erkən nikahların fəsadları ilə bağlı təbliğat-təşviqat işlərinin gücləndirilməsi zəruridir. Azərbaycanda Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Bu işdə Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi ilə yanaşı, vətəndaş cəmiyyəti institutlarının da rolunun artırılması məqsədə uyğundur. Ölkəmizdə qadınların ali təhsil almaq imkanlarının genişləndirilməsi zəruridir. Bundan ötrü, ilk növbədə gənc qızlar arasında maarifləndirmə işinin genişləndirilməsi zəruridir. Orta məktəblərdə təhsilin keyfiyyəti artırılmalıdır. Fikrimizcə, ölkəmizdə sosial sahibkarlığın inkişaf etdirilməsi məşğulluq səviyyəsinin yüksəldilməsinə şərait yaradardı. Bundan başqa, inklüziv məşğulluğun, o cümlədən qadın məşğulluğunun səviyyəsinin yüksəldilməsi, qadınların özünüməşğulluq imkanlarının genişləndirilməsi məqsədi ilə onlara peşə hazırlığı təlimlərinin verilməsi işinin genişləndirilməsi zəruridir. Bu məqsədlə qadınlar arasında əl əməyi (işləri) bacarıqlarının genişləndirilməsi məqsədə uyğun olardı. Bu işin xüsusilə də regionlarda aparılması daha məqsədə uyğundur. Bundan ötrü paytaxtda və regionlarda "Əl sənətləri", "Əl əməyi, göz nuru" və s. bu kimi Yaradıcılıq emalatxanalarının açılması məqsədə uyğundur. Bu yaradıcılıq emalatxanaları əl əməyi sənəti ilə məşğul olan və olmaq istəyən insanları

koordinasiya etməklə yanaşı, onların məhsullarının satılmasına şərait yaradardı. Bunlardan başqa, bu tip yaradıcılıq emalatxanaları inkluziv məşğulluğun təmin olunması, əlillərin cəmiyyətə inteqrasiyasında da səmərəli ola bilər.

Korrupsiya göstəricisi üzrə Azərbaycan 30 balla 125-ci pillədə qərarlaşmışdır. Bu göstərici üzrə müqayisə aparılan qonşu ölkələrdən Rusiyadan (28 balla 136-cı pillə) və İrandan (26 balla 145-ci pillə) yaxşı mövqeyə malikdir. Yəni ölkəmizin bu göstərici üzrə də mövqeyi ürəkaçıcı deyil. İnklüzivlik alt-indeksinə görə Azərbaycan 24.81 balla 154-cü pillədə qərarlaşmışdır. Bu alt-indeks üzrə də ölkəmizin mövqeyi təəssüf doğurur. Siyasi hakimiyyətdə gender bərabərliyi göstəricisi üzrə ölkəmiz 1.44 balla 136-cı pillədədir. Göründüyü kimi, ölkəmizin mövqeyi qənaətbəxş deyil. Sosial qrupun siyasi gücünün bərabərliyi göstəricisi üzrə ölkəmiz 0.88 balla 151-ci pillədədir. Qonşu ölkələr arasında Azərbaycan ən pis mövqeyə malikdir və bu, təəssüf doğurur. Ali təhsilin əlçatanlığı alt-indeksinə görə də qonşu ölkələr arasında respublikamız ən zəif mövqeyə malikdir. Sevindirici haldır ki, İnklüzivlik alt-indeksinin hesablanmasında istifadə edilən bəzi göstəricilər (Siyasi hakimiyyətdə gender bərabərliyi, Sosial qrupun siyasi gücünün bərabərliyi) üzrə də son illərdə müsbət tendensiya müşahidə edilir.

**Ədəbiyyat**

1. Freedom House. Political rights. https://freedomhouse.org/report-types/freedom-world
2. Fund for Peace. Fund for Peace Fragile States Index. https://fundforpeace.org/
3. Gallup World Poll. Acceptance of gays and lesbians. https://www.gallup.com/analytics/232838/world-poll.aspx
4. https://www.socialprogress.org/
5. Institute for Health Metrics and Evaluation (IHME). Global Burden of Disease Study 2017 (GBD 2017) Health-related Sustainable Development Goals (SDG) Indicators 1990-2030. http://ghdx.healthdata.org/record/ihme-data/gbd-2017-health-related-sdgs-1990-2030
6. Institute for Health Metrics and Evaluation (IHME). Global Educational Attainment Distributions 1970-2030. http://ghdx.healthdata.org/record/ihme-data/global-educational-attainment-distributions-1970-2030
7. Institute for Health Metrics and Evaluation (IHME). Women with advanced education Women with advanced education. http://ghdx.healthdata.org/record/ihme-data/global-educational-attainment-1970-2015
8. QS World University Rankings. 2019. https://www.topuniversities.com/university-rankings/world-university-rankings/2021
9. Social Progress Index. Azerbaijan. https://www.socialprogress.org/static/3a3ea86ae07594fb06223d2ed894eb86/aze-scorecard.pdf
10. The United Nations. Sustainable Development Goals. Committed to connecting world http://www.itu.int/en/ITU-D/Statistics/Pages/stat/default.aspx
11. Transparency International. Global Corruption. https://www.transparency.org/
12. V-Dem Institute. Access to justice. https://www.v-dem.net/en/data/data-version-8/

***Расмия Сабир кызы Абдуллаева***

***Улучшение позиции Азербайджана по индексу социального прогресса***

***Резюме***

*Цель исследования-изучить позицию Азербайджана по индексу социального прогресса. Методика исследования - в исследовательской работе использованы методы сравнительного анализа, обобщения и корреляции. Прикладное значение исследования-может быть полезно при принятии решений в области социально-экономической политики, проводимой с целью усиления социального прогресса в Азербайджане. Результаты исследования - позиция Азербайджана по индексу социального прогресса неутешительна. Оригинальность и научная новизна исследования-впервые была проанализирована позиция Азербайджана по индексу социального прогресса, определены его слабые и сильные стороны.*

***Ключевые слова:*** *социальный прогресс, благосостояние, образование, здоровье, инклюзивность, права человека, экологическая безопасность*

***Rasmiyya Sabir Abdullayeva***

***Improving Azerbaijan's position on the Social Progress Index***

***Summary***

*The purpose of research is the analyze of the position of Azerbaijan on the Social Progress Index. Research methodology – case analysis, generalization and correlation methods were used in the research. The importance of application of the research can be useful when making decisions in the field of socio-economic policy related to the strengthening of social progress in Azerbaijan. The results of the study - it is determined that the position on the Social Progress Index of Azerbaijan is not satisfactory. Research and scientific innovation - for the first time, Azerbaijan's position on the Social Progress Index was analyzed and its weak and strong sides have been defined.*

***Keywords:*** *social progress, welfare, education, health, inclusion, human rights, environmental security*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 27.06.2022.***
***Çapa qəbul olunub: 01.07.2022.***